**Bakı Dövlət Universiteti
Kitabxanaşünaslıq kafedrasının
2013-cü il üçün elmi-tədqiqat işləri haqqında**

# HESABATI

## 1. GİRİŞ

2013-cü il respublikanın ictimai-siyasi həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur. Ümummilli lider H.Əliyev kursunun layiqli davamçısı prezident İ.Əliyev üçüncü dəfə xalqın böyük etimadını qazanaraq prezident seçilmişdir. Xalqın gənc prezidentimizə göstərdiyi bu etimad respublikamızın ictimai-siyasi həyatında təhsil və mədəniyyət sahəsində böyük canlanma əmələ gətirmişdir.

Həmçinin onu da qeyd etmək lazımdır ki, 2013-cü il ümummilli lider H.Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlamətdar olmuşdur.

Hər iki əlamətdar hadisəni Azərbaycan Respublikasında sosial-iqtisadi və elmi-mədəni istiqamətlərdə ciddi irəliləyişlərin baş verməsi, təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların aparılması və Azərbaycan ali məktəblərinin Bolonya prosesinə sürətlə inteqrasiya etməsi hər bir elm və təhsil müəssisəsinin qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Bu təxirəsalınmaz və taleyüklü vəzifələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il sentyabrın 5-də imzaladığı sərəncamla qüvvəyə minmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit edilmişdir.

Respublika təhsil müəssisələrinin flaqmanı olan Bakı Dövlət Universiteti elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədi, ali təhsil sistemində aparıcı milli universitetdir. BDU 90 ildən artıq fəaliyyəti dövründə respublikamızın ilk ali təhsil ocağı kimi ölkə həyatının bütün sahələrinə təsir edərək elm, təhsil və mədəniyyətin inkişafı sahəsində əvəzsiz xidmətlər göstərmişdir. BDU-nun keçdiyi şərəfli tarixi yol Azərbaycan təhsilinin, elminin və mədəniyyətinin inkişaf yoludur. Bu baxımdan Bakı Dövlət Universitetinin elm və təhsilinə öz töhfələrini verən Kitabxanaşünaslıq kafedrasının professor-müəllim və texniki heyəti təlim-tədris işləri ilə bərabər elmi-tədqiqat işlərinin yerinə yetirilməsi sahəsində də üzərinə düşən vəzifələri vaxtında və məsuliyyətlə yerinə yetirmək üçün ciddi səy göstərmişdir.

2013-cü hesabat ilində Kitabxanaşünaslıq kafedrası yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması prosesində aparıcı rolunu davam etdirmiş, elmi-tədqiqat sahəsində öz fəaliyyətini respublikamızın qarşısında duran

müasir tələblər səviyyəsində təşkil etmiş, yeni uğurlar qazanmaq üçün kollektivin elmi potensialından səmərəli şəkildə istifadə etməyə çalışmışdır.

Kafedra əməkdaşları tərəfindən hal-hazırda kitabxanaşünaslıq elminin prioritet sahələri olan elektron kitabxanaşünaslıq, kitabxanaşünaslığın fəlsəfi problemləri kimi məsələlər elmi-tədqiqata cəlb olunmuşdur.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ

2013-cü ildə Kitabxanaşünaslıq kafedrasında 13 nəfərdən ibarət professor-müəllim və laborant-texniki işçi heyəti fəaliyyət göstərmişdir. Bunlardan 1 nəfəri tarix elmləri doktoru, professor, 3 nəfəri dosent, 3 nəfəri elmər namizədi, 1 nəfər baş müəllim, 2 nəfər 0,5 şt müəllim, 1 nəfəri laboratoriya müdiri, 2 nəfər laborantdır.

Kafedrada işləyən əməkdaşların tam siyahısı, onların tutduğu vəzifələr, elmi dərəcələri və elmi adları aşağıdakı kimi olmuşdur:

| S.n. | Adı, atasının adı, soyadı | Təvəllüdü | Tutduğu vəzifə | Elmi dərəcəsi və elmi adı |
|---|---|---|---|---|
| 1. | Abuzər Alı oğlu Xələfov | 25.12.1931 | Kafedra müdiri | Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor |
| 2. | Qurbanov Azad İsabala oğlu | 06.26.1966 | Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı | dosent |
| 3. | Elçin Yusif oğlu Əhmədov | 15.04.1961 | Kitabxanaçılıq-informasiya | Pedaqogika üzrə fəlsəfə doktoru |





| | | | | |
|---|---|---|---|---|
| | | | fakültəsinin magistratura və elmi işlər üzrə dekan müavini, dosent | |
| 4. | Mehmanəli Əkbər oğlu Məmmədov | 18.02.1957 | Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavr şöbəsi üzrə dekan müavini, dosent | Pedaqogika üzrə fəlsəfə doktoru |
| 5. | Pərviz Firidun oğlu Kazımi | 10.12.1958 | Müəllim | Tarix üzrə fəlsəfə doktoru |
| 6. | Nigar Nurəddin qızı İsmayılova | 23.07.1978 | Baş müəllim | |
| 7 | Şirinov Ceyhun Rəfail oğlu | 1986 | Müəllim | |
| 8 | Məmmədova Sevda | 1980 | 0,5 şt müəllim | |
| 9 | Hicran Oqtay qızı Zeynalova | 18.06.1977 | 0,5 şt müəllim | |
| 10 | Zöhrə Cavanşir qızı Camalova | 22.08.1956 | Laboratoriya müdiri | |
| 11. | Vəfa Bahadur qızı Quliyeva | 14.02.1977 | Laborant | |
| 12. | Sahibə Hidayət qızı Əliyeva | 29.05.1971 | Laborant | |

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Kitabxanaşünaslıq kafedrasının kadr potensialına itki baş vermiş, baş müəllim Akif Cəfərov və filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Rzayev Sahib Mirzalı oğlu 2013-cü ildə vəfat etmişlər. Onların yerinə gənc müəllimlər ştata götürülmüşlər.

## 3. KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

Hesabat ilində Kitabxanaşünaslıq kafedrasının professor-müəllim heyəti planda nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müstəqilliyi şəraitində əhaliyə kitabxana xidmətinin təşkili (tarixi, müasir vəziyyəti, nəzəri

problemləri və inkişaf perspektivləri)" problemi istiqamətində "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda əhaliyə kitabxana xidmətinin müasir problemləri" mövzusunda kompleks elmi-tədqiqat işini müasir dövrdə kitabxanaşünaslıq elminin qarşısında duran əsas vəzifələrlə əlaqələndirmiş, araşdırdıqları mövzunu elmi cəhətdən düzgün əsaslandırmış, tədqiqatda qısaca olaraq aşağıdakı annotasiyaları ümumiləşdirmişlər:

**1. Professor A.A.Xələfov**

**Mövzu:** Cəmiyyət və mədəniyyət

Elmi-tədqiqat işində kitabxanaların hamisi kimi cəmiyyət və onun sosial təsisatları xarakterizə olunur. Cəmiyyət və mədəniyyət anlayışı və onların koordinasiyasının kitabxanaların müasir statusuna təsiri təhlil edilir.

**2. Dosent E.Y.Əhmədov**

**Mövzu:** Məktəb kitabxanalarının informasiyalaşdırılması xüsusiyyətləri. Elmi-tədqiqat işində məktəbin strukturunda əhəmiyyətli rol oynayan məktəb kitabxanaları və onların məktəb proqramının yerinə yetirilməsindəki rolu, həmçinin bu növ kitabxanaların informasiyalaşdırma xüsusiyyətləri araşdırılır.

3. *Dosent M.Ə.Məmmədov*

**Mövzu:** Elmi-texniki kitabxana mütəxəssislərinə informasiya xidmətinin avtomatlaşdırılmasının tarixi inkişafı. Elmi-tədqiqat işində elmi-texniki kitabxana şəbəkələrində mütəxəssis oxucuların informasiya təminatının avtomatlaşdırılması yolları araşdırılır və bu prosesin müasir dövr üçün aktuallığı vurğulanır.

4. **Müəllim, fəlsəfə doktoru P.F.Kazımi**

**Mövzu:** Rusyada və Qafqazda türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Elmi-tədqiqat işində Rusiyada və Qafqazda məskunlaşmış türk xalqlarının kitab və kitabxana mədəniyyəti tarixi mərhələlər üzrə araşdırılır. Qeyd edilir ki, Rusiyada və Qafqazda məskunlaşmış türk xalqlarının kitab və kitabxana mədəniyyəti onların intellektual səviyyəsinin formalaşmasına əsaslı təsir etmişdir.

5. **Müəllim N.N.İsmayılova**

**Mövzu:** Elektron kitabxanaların yaradılması texnologiyaları: Elmi-tədqiqat işində müasir kitabxanalar üçün əhəmiyyət kəsb edən elektron kataloqların yaradılması texnologiyaları araşdırılır və bu proses elektron kitabxanaların formalaşmasına təsir edən amil kimi xarakterizə edilir.

Qeyd etdiyimiz kimi, 2013-cü ildə kitabxanaşünaslıq kafedrasına dünyasını dəyişmiş əməkdaşların yerinə götürülən gənc müəllimlərdən C.Şirinov, S.Məmmədova və H.Zeynalova üçün cari tədris ilində elmi-tədqiqat işi planlaşdırılmamışdır.





## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİNXARAKTERİSTİKASI

***(Dərc olunmuş elmi işlər (məqalə, tezis), monoqrafiyalar (annotasiyası), dərslik və dərs vəsaitləri haqqında məlumat (kitablar əlavə olunmaqla)***

| № | Mövzunun, işin adı | Rəhbər və icraçılar | Nəşriyyatın, jurnalın və.s. adı | qeyd |
|---|---|---|---|---|
| 1 | M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 90 il elm və mədəniyyətin xidmətində | Xələfov A.A. | B:BUN,2013.-64s. | |
| 2 | Kitabxanaşünaslığın müasir problemləri | Xələfov A.A | Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal.- 2013.-№1.-s.7-27. | Elmi məqalə |
| 3 | Kitabxana işinə dair Heydər Əliyev ideyaları uğurla davam edir: | Xələfov A.A. | Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal.- 2013.-№2.-s.7-25. | Elmi məqalə |
| 4 | Görkəmli alim haqqında mükəmməl biblioqrafiya | Xələfov A.A | AMEA-nın akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Mircəlal oğlu Paşayevin həyat və fəaliyyətinə həsr olunmuşdur. Zirvə Yolu.- 2013.- s.5. | |
| 5 | Kitab böyük qüvvədir | Xələfov A.A | Zirvəyə doğru jur 2013, 16 fevral, №3.-s.46-47. | |
| 6 | Kitab böyük qüvvədir | Xələfov A.A. | Zirvəyə doğru jur.- 2013, 15 mart, №4.-s.44-45 | |
| 7 | Xalqa və dövlətə xidmət amalı/ Ulu öndər Heydər Əliyevin 90-illiyi ilə əlaqədar | Xələfov A.A | Azərbaycan sədaları jur.- 2013, №7-8. | |
| 8 | Xalqımızın qürur və qeyrət simvolu / Heydər Əliyev – 90 | Xələfov A.A. | "Azərbaycan müəllimi" qəzeti 2013, 26 aprel, № 15. – s.4. | |
| 9 | Azərbaycanın uğurlu yüksəlişi naminə/Müstəqillik Azərbaycan xalqının ən böyük sərvətidir | Xələfov A.A | Azərbaycan qəz.-2013, s.6-7. | |
| 10 | İlham Əliyevin namizədliyini dəstəkləyirik | Xələfov A.A. | "Azad Azərbaycan" qəzeti.- 2013, s.4. | |

| | | | | |
|---|---|---|---|---|
| 11 | Uşaq və gənclərin ənənəvi və virtual ünsiyyət problemi | E.Y.Əhmədov | Kitabxana.az jurnalı.2013-cü il | |
| 12 | Məktəb kitabxanalarının informasiyalaşdırılması. | E.Y.Əhmədov | Kitabxaşünaslıq-informasiya jurnalı. №3.-2013. | |
| 13 | H.Əliyev irsinin təbliğində uşaq və gənclər kitabxanalarının rolu. | E.Y.Əhmədov | Tezislər toplusu.-2013. | tezis |
| 14 | Kitaba resenziya (Almaniyada çıxan İnformasiya mühəndisliyi kitabı haqqında) | | Kitabxaşünaslıq-informasiya jurnalı. №3.-2013 | |
| 15 | Elmi-texniki kitabxana şəbəkələrinin formalaşması və inkişafı | M.Məmmədov | komp variantı | proqram |
| 16 | Elmi-texniki kitabxanada patentlə iş | M.Məmmədov | komp variantı | proqram |
| 17 | Kitabxana informasiya işinin iqtisadiyyatı. | M.Məmmədov | | |
| 18 | :inqinin xüsusiyyətləri | M.Məmmədov | Kitabxaşünaslıq-informasiya jurnalı. №3.-2013. | |
| 19 | Elektron elm (E-Elm) və müasir kitabxana – informasiya fəaliyyəti | Pərviz Kazımi | BDU, Kitabxanaşünaslıq – İnformasiya. 2013.-2(10).- s. 22-29 (A. Qurbanovla birlikdə) | |
| 20 | Kitabxanalar sosial-mədəni mühitdə. (Rus dilində) (sosial-mədəni mühitin formalaşdırılmasında kitabxanaların rolu və əhəmiyyəti | Pərviz Kazımi | BDU, Kitabxanaşünaslıq – informasiya , 2013.- 2(10).- s. 56-66. ( R. A. Qilmiyanova ilə birlikdə) | |
| 21 | Orta Asiya və Şərqi Türküstanda orta əsr kitabxanaçılıq ənənələri. | Pərviz Kazımi | BDU, Kitabxanaşünaslıq – informasiya. 2013. 1(9).- s. 52 | |
| 22 | Rusiyada türk xalqlarının kitab və kitabxana mədəniyyəti | Pərviz Kazımi | BDU, Kitabxanaşünaslıq və informasiya . 2013. 3 | |
| 23 | Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin | Pərviz Kazımi | (dil və ədəbiyyat). 2013 | |





| | | | | |
|---|---|---|---|---|
| | mənbəşünaslığı | | | |
| 24 | İnformasiyanın qiymətləndirilməsi | Pərviz Kazımi | (dil və ədəbiyyat) . 2013 | |
| 25 | Азербайджанская Библиотековедение как научная школа профессора А. Халафова Украина. | Pərviz Kazımi | Киев. Библиотечный форум. 2013 | |
| 26 | Оценка информации в Библиотечно–информационном деятельности. Вектор науки. | Pərviz Kazımi | Толлатинский государственный универсмием. 2013.1(12).- с. 58-61 | |
| 27 | Информационная инжинерия как предмед предодавании Педогогицский весник | Pərviz Kazımi | BQPU | |
| 28 | Оценка информации в библиотечно–информационном дело. | N.İsmayılova | Вектор науки: juranal.-2013 | |
| 29 | Проблемы компютеризации Азербайджанских библиотел в переходном периоде. | N.İsmayılova | Гилея.-Elmi-xəbərlər | |
| 30 | Təhsildə informasiya və multimediya texnologiyaları. | N.İsmayılova | | tezis |
| 31 | Elektron kataloqlar cəmiyyətin formalaşmasının əsas amilidir. | N.İsmayılova | | |

## 5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ TƏDQİQAT İŞLƏRİ

Cari hesabat ilində Kitabxanaşünaslıq kafedrasında respublikadaxili və beynəlxalq qrantlar əsasında yerinə yetirilən elmi tədqiqat işləri olmamışdır.

Bununla belə, Kitabxanaşünaslıq kafedrasının 3 əməkdaşı elmi-tədqiqat işlərini yerinə yetirməklə yanaşı Bakı Dövlət Universitetində 2012-2013-cü illər üçün elan olunmuş "Universitetdaxili 50+50 qrant proqramı" layihəsi müsabiqəsində iştirak etmişlər. Belə ki, f.e.d. Pərviz Kazımi, baş müəllim Nigar İsmayılova və magistr Qasımzadə Günel layihənin davamı ilə məşğul olurlar. Nigar İsmayılova "Bakı Universitetinin Elmi Əsərlərinin və Elmi Xəbərlərinin elektron versiyasının yaradılması" ilə layihədən kənar olaraq da məşğuldur. O, BDU-nun rektoru, akademik A.Məhərrəmovun imzaladığı 11.11.2010 R-73 nömrəli əmrlə professor-müəllim nominasiyasında müvəffəqiyyətlə icra olunmuş və universitet üçün xüsusi əhəmiyyəti olan layihələri davam etdirmək hüququ qazanmışdır. Onun yaratdığı "Bakı Universitetinin Elmi Əsərlərinin və Elmi Xəbərlərinin", "Tarix və onun problemləri", "Folklorşünaslıq məsələləri" jurnallarının elektron məlumat bazası Bakı Dövlət Universitetinin veb saytının (www.bsu.edu.az) ana səhifəsində jurnallar bölməsində yerləşdirilmişdir.

Həmçinin kafedranın əməkdaşları respublikadaxili bir neçə təşkilata məsələn, Qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurasına və Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi fonduna layihələr hazırlayaraq təqdim etmişlər. Cavablar yaxın günlərdə açıqlanacağından onlar haqqında ətraflı məlumatı qeyd edə bilmirik.

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kitabxanaşünaslıq kafedrasının müdiri, prof. A.Xələfov və kafedranın aparıcı alimləri AMEA Mərkəzi Elmi Kitabxanası ilə sıx əməkdaşlıq şəraitində işləmiş, birgə elmi tədbirlərdə, o cümlədən elmi konfranslarda iştirak etmiş, qarşılıqlı fikir mübadilələri aparmış, kitabxananın elmi kadr potensialının artırılmasında, eləcə də elektron kataloqun yaradılmasında müəyyən köməklik göstərmişlər.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR

2013-cü ilin aprel ayında Xarkov Milli Universitetinin Mərkəzi Elmi Kitabxanasının dəvəti ilə kafedranın əməkdaşı tarix üzrə fəlsəfə doktoru P.Kazımi Elmi Konfransda çıxış etmiş, müəllimin tezisləri və çıxışı çap olunmuşdur. Konfransda iştirak zamanı Xarkov Mədəniyyət Akademiyasının





Kitabxanaçılıq fakültəsi ilə əlaqələr yaradılmışdır və hazırda bu əməkdaşlıq davam edir.

Lvov Politexnik Universitetinin bu ilin sentyabr ayında keçirilən konfransında P.Kazımi qiyabi iştirak etmiş və onun informasiya mühəndisliyi konsepsiyası mövzusunda məruzəsi çap edilmişdir.

Bu ilin iyun ayında universitetlərarası imzalanmış müqaviləyə əsasən kafedranın müəllimi Başqırdıstan Dövlət Pedaqoji Universitetində kitabxanaçılıq təhsili aparılan sosial-humanitar fakültədə təcrübə mübadiləsində olmuş və sertifikat almışdır. Həmin müqaviləyə əsasən Başqırdıstan Dövlət Pedaqoji Universitetinin dosenti R.A.Gilmiyanova dekabr ayının 17-dən -24-ə qədər fakültəmizdə təcrübə mübadiləsi keçmişdir. 2013-cü ildə kafedranın Beynəlxalq əlaqələri çərçivəsində kitabxanaşünaslıq və informasiya jurnalının redaksiya heyətinin üzvləri ilə mütəmadi əlaqə saxlanılmış, xarici mütəxəssislərin elmi məqalələri jurnalımızda çap olunmuş, eləcə də kafedra əməkdaşlarının elmi məqalələri xaricdə çap olunmağa tövsiyə edilmişdir.

Türkiyədə kitabxanaçılıq təhsilini həyata keçirən Ankara Universiteti və Tatarıstanda kitabxanaçılıq təhsilini həyata keçirən Tatarstan Dövlət Mədəniyyət Akademiyyası ilə hal-hazırda əməkdaşlıq ilə əlaqədar yazışmalar davam edir.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasında görülən elmi tədqiqat işləri bilavasitə respublikamızın bir çox kitabxanasında, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, AMEA Mərkəzi Elmi Kitabxanasında, BDU Elmi Kitabxanasında, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, eləcə də başqa universal elmi və universal kütləvi kitabxanalarında tətbiq edilmək məqsədilə tövsiyə olunmuşdur.

Kitabxanaşünaslıq kafedrasının nəzdində fəaliyyət göstərən "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasında yaradılan elektron kitabxana Bakı Dövlət Universitetində təhsilin informasiya bazasının təminatına xidmət edir.

Kafedranın əməkdaşı P.Kazıminin 2013-cü ildə Almaniyada nəşr olunan informasiya mühəndisliyi monoqrafiyası AMEA-nın illik hesabatına daxil edilmək üçün təqdim edilmişdir.

## 9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ

2013-cü ildə kitabxanaşünaslıq kafedrasında patent və informasiya işləri sahəsində kafedra əməkdaşlarının kafedranın profili üzrə müəyyən işləri planlaşdırılır. Patent və informasiya işlərinə dair kitabxanaşünaslıq kafedrasında axtarışlar aparılır və bu sahədə qabaqcıl təcrübənin öyrənilməsinə cəhd edilir.

## 10. DÖVLƏT PROQRAMLARININ TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının" həyata keçirilməsi üzrə tədbirlər planında nəzərdə tutulan "Ali təhsil müəssisələrində elektron kitabxanaların yaradılması" tədbirinin icrası üçün Bakı Dövlət Universiteti Elmi Kitabxanasında "Kitabxanaların kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyası ilə birlikdə Elektron kitabxananın yaradılması ilə əlaqədar müəyyən işlər görürlər.

## 11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

Hesabat ilində Kitabxanaşünaslıq kafedrasının müdiri prof. Abuzər Xələfov və kafedranın əməkdaşları respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında fəal iştirak etmişdir.

2013-cü ildə Kitabxanaşünaslıq kafedrasında keçirilmiş elmi seminarların mövzusu və məruzəçilər aşağıdakı kimi olmuşdur:

*Mövzu:* "MKS-lər elmin inkişafına xidmət edən müəssisələrdən biri kimi". Məruzəçi: doktorant Y.Məmmədova.

*Mövzu:* "Türk xalqlarının kitab və kitabxanasının mənbəşünaslığı kimi". Məruzəçi: f.e.n. P.Kazımi.

Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Heydər Əliyev və kitabxana quruculuğu" mövzusunda magistrant və doktorantların Respublika Elmi Konfransının proqramı 20 aprel 2013-cü il

Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Heydər Əliyev irsində kitab və kitabxana məsələləri" mövzusunda Respublika Elmi Konfransının tezisləri 02 may 2013-cü il

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının Yaradılmasının 10 illiyinə həsr olunmuş "Prezident Kitabxanasının yaradılması tarixindən" mövzusunda prof.A.Xələfov, "Dövlət idrəetmə orqanlarının sənəd-informasiya təminatı: müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransda iştirak edən





kafedranın əməkdaşı A.Qurbanov "Dövlət idrəetmə orqanlarına göstərilən kitabxana- informasiya xidmətinin qiymətləndirilməsi" mövzusunda məruzələr etmişdir.

## 12. KAFEDRADA ELMİ VƏ ELMİ-REDAQOJİ KADRLARIN HAZIRLANMASI

2011-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində, o cümlədən Kitabxanaşünaslıq kafedrasında elmi və elmi-pedaqoji kadrların hazırlanması diqqət mərkəzində olmuşdur. Cari tədris ilində Kitabxanaşünaslıq ixtisası üzrə təhsil alan doktorant, dissertant və magistrantlar, onların mövzuları və elmi rəhbərləri haqqında məlumat belədir:

1. Kitabxanaşünaslıq kafedrası üzrə əyani doktorant Məmmədova Yeganə Arif qızının "Müasir şəraitdə mərkəzləşmiş kitabxana sistemlərində elmə kitabxana-informasiya xidmətinin təşkili: 2000-2013-cü illər (Bakı şəhər mərkəzləşmiş kitabxana sistemlərinin materialları əsasında) ". (Elmi rəhbər: prof.A.Xələfov) .

2. Dissertant Şirinov Ceyhun Rafail oğlu "Elmi kitabxanalarda kitabxana-biblioqrafiya proseslərinin informasiyalaşdırılması (avtomatlaşdırılması) müasir vəziyyəti və perspektivləri (Azərbaycan elmi kitabxanalarının materialları əsasında (2000-2015-ci illər))" (Elmi rəhbər: prof.A.Xələfov) .

3. Dissertant Zərbəliyeva Esmira Manaf qızı "Elmi kitabxanalarda kitabxana-biblioqrafiya proseslərinin informasiyalaşdırılması (avtomatlaşdırılması) müasir vəziyyəti və perspektivləri (Azərbaycan elmi kitabxanalarının materialları əsasında (2000-2015-ci illər))" (Elmi rəhbər: prof.A.Xələfov)

4. Kitabxanaşünaslıq kafedrası üzrə dissertant Məmmədova Sevda İsrafil qızı "Ali məktəb kitabxanalarında oxuculara elektron informasiya vasitələri ilə xidmətin təşkili" (Elmi rəhbər: prof.A.Xələfov) adlı dissertasiyası.

5. Doktorant Kazımi Pərviz Firudin oğlunun (Elmi məsləhətçi əməkdar elm xadimi prof.A.Xələfov) "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti"adlı dissertasiyasının attestasiyası. doktorant 2013-cü ildə Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəşünaslığı ilə əlaqədar araşdırmalar aparmış, bu istiqamətdə bir neçə məqalə çap etdirmiş. Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəyi və mənbəşünaslığı mövzusunda monoqrafiya hazırlamış və bir neçə beynəlxalq konfransda iştirak etmişdir.

**Magistr mövzuları:**

I kurs əyani şöbə üzrə:

1. Qasımzadə Günel- "Azərbaycan milli kitabxanaşünaslıq elminin tarixşünaslığı".
2. Abbasova Bəturə - Azərbaycan Respublika Gənclər Kitabxanası müstəqillik illərində (2001-2013-cü-il)"
3. Abdullazadə Fəridə - "Web texnologiya əsasında kitabxanaların avtomatlaşdırılması"
4. Abbasova Jalə- "Kitabxanaşünaslığın strukturu"
5. Nəcəfova Züleyxa- "RETK-na şəbəkələrində Neft sənayesi işçilərinə kitabxana informasiya xidmətinin təşkili (2000-2012-ci illər)"
6. Salehi Rəqsanə - "Elektron kitabxanalar tədris prosesinin informasiya təminatının inkişaf etdirilməsi vasitəsi kimi (Ali məktəb kitabxanalarının: BDU-Iqtisadi universiteti və Xəzər universiteti) iş təcrübəsi əsasında"
7. Məmmədova Zemfira- "Kitabxana xidməti proseslərində yeni kitabxana informasiya texnologiyasının tədbiqi. (Azərbaycan elmi-kitabxanasının materialları əsasında)"

**II kurs qiyabi şöbə üzrə:**

1. Mümtaz Xəlilzadə. "İnformasiyalaşdırılmış cəmiyyətdə informasiya təhlükəsizliyi və kitabxanaların vəzifələri (M.F.Axundov adına Milli Kitabxananın, AMEA Elmi Kitabxanasının və Bakı Dövlət Universiteti Elmi Kitabxanasının iş təcrübəsi əsasında)". Elmi rəhbər: fəl.dok. P.Kazımi.

**III kurs qiyabi şöbə üzrə:**

1. Hacıyev Vüqar. "Müstəqillik illərində AMEA-nın MEK-in diyarşünaslıq fəaliyyəti: ənənə və innovasiya" (rəhbər A.Kəngərli)
2. Musayeva Xədicə. "Informasiya cəmiyyətində Respublika Pedaqoji kitabxanasında oxuculara kitabxana-informasiya xidmətinin təşkili " (1991-2010) (rəhbər K.Aslan)
3. Hüseynova Zülfiyyə "Bakı və Sumqayıt MKS-lərində informasiya texnologiyalarının tədbiqi" (2001-2010) (rəhbər. M.Məmmədov)

Adları çəkilən hər 3 qiyabi magistrant nəzəri kursu bitirmişlər, magistr dissertasiyalarını yekunlaşdırmaq üzrədirlər. Fevral ayında müdafiələri planlaşdırılır.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ

2013-cü ildə ildə Kitabxanaçılıq-informasiya fakültəsində AMEA MEK-in dissertantı Cəfərov Cavid Ağalar oğlunun "Azərbaycan kitabxanalarında elektron kataloqların yaranması" (tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri) mövzusunda 3356.01 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq; kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 may 2013-cü il tarixdə müvafiq əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının sədri prof. A.Xələfov olmuşdur.

Prof. A.Xələfovun sədrlik etdiyi Birdəfəlik Dissertasiya Şurasının iclaslarında dos. K.Aslan Ekspert Komissiyasının, eləcə də müdafiə prosesində Hesablayıcı Komissiyanın üzvü seçilmiş, dissertasiyaların yekun müzakirələrində çıxış etmiş, öz elmi mülahizə və tövsiyələrini bildirmişdir.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşlarından (mərhum dos. S.Rzayev,) dos. M.Məmmədov, dos. E.Əhmədov, fəlsəfə doktoru P.Kazımi dissertasiya işinə müsbət rəy yazmış, onun seminarında fəal iştirak etmişlər.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

"Kitabxanaşünaslıq" ixtisası üzrə təhsil alan magistrantların, bakalavrların müxtəlif aktual mövzularda hazırladıqları məruzələr fakültədə keçirilən elmi konfranslarda dinlənilmişdir. Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Heydər Əliyev və kitabxana quruculuğu" mövzusunda magistrant və doktorantların Respublika Elmi Konfransı 30 aprel 2013-cü ildə keçirilmişdir. Kafedranın əməkdaşları konfransda aşağıdakı məruzələrlə çıxış etmişlər:

1. Məmmədova S. "Elektron informasiya vastələrinin mühafizəsi problemi" mövzusunda çıxışı.
2. Quliyeva V. "Heydər Əliyev irsində milli ideologiya məsələləri"
3. Məmmədova Y. "Müasir dövr kitabxanaları"
4. Cabbarova A. "Heydər Əliyev məktəblilərin gözü ilə"
5. Zərbəliyeva E. "İnformasiya funksiyası-kitabxanaların müasir inkişafında əsas sosial funksiya kimi"

Bundan başqa, 2013-cü il mayın 2-də ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Heydər Əliyev irsində kitab və kitabxana məsələləri" mövzusunda Respublika Elmi Konfransı keçirildi. Kafedranın əməkdaşları konfransda aşağıdakı məruzələrlə çıxış etmişlər:

1. Qurbanov.A. "Dahi insan, böyük şəxsiyyət- Heydər Əliyev"
2. Əhmədov E. "Heydər Əliyev irsinin təbliğində uşaq və gənclər kitabxanalarının rolu"
3. Məmmədov M. "RETK-sı müasir mərhələdə"

4. İsmayılova N. "Təhsildə informasiya və multimediya texnologiyaları"

Hal-hazırda rektorun sərəncamı ilə dekabr ayının sonunda Müasir mərhələdə kitabxana informasiya texnologiyaları adlı konfransın keçirilməsi nəzərdə tutulur. Konfransda Kitabxanaşünaslıq kafedrasının magistrantları, doktorantları və müəllimləri tezislə çıxış edəcəklər.

## 15. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

1. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrası Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi haqqında (2009-2015-ci illər) tədbirlər planı hazırlamışdır. Bu planda 2009-2015-ci illərdə Kitabxanaşünaslıq üzrə elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, regionların sosial-iqtisadi inkişafında kitabxana-informasiya təminatının təkmilləşdirilməsinə kömək edən elmi tədqiqat işlərinin aparılmasının təmin edilməsi, tələbə və magistrantlar üçün elmi konfransların təşkili, AMEA MEK-ın kitabxanaşünaslıq şöbəsi ilə əməkdaşlığın möhkəmləndirilməsi, kitabxanaşünaslıq fənlərinin tədrisində informasiya və telekommunikasiya vasitələrinin tətbiqinin təmin olunması, kitabxanaşünaslıq fənlərinin tədrisinin yaxşılaşdırılması məqsədilə fənlərin elektron məlumat bazasının yaradılması, BDU-nun elektron kitabxanasının təşkilində kafedranın iştirakının təmin edilməsi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Kafedranın qarşısında duran əsas vəzifələrdən biri ölkədə və xaricdə Kitabxanaşünaslıq mərkəzləri ilə əlaqələrin gücləndirilməsi, Boloniya prosesinə uyğun olaraq kitabxanaşünaslıq fənlərinin metodik təminatının yaxşılaşdırılması, kafedranın nəzəri seminarlarının işinin canlandırılması və aparıcı mütəxəssislərin cəlb edilməsi praktikasının tətbiqi, tələbə elmi-tədqiqat işlərinin səviyyəsinin qaldırılmasıdır.

Kitabxanaşünaslıq kafedrası üzrə aparılan elmi-tədqiqat işlərinin nəticələri bilavasitə kitabxanaçılıq təhsili üzrə bakalavr və magistr pilləsi üzrə tədris prosesinin təkmilləşməsinə, elmi cəhətdən yeniləşməsinə yönəlir. Digər tərəfdən, alınan ən mühüm nəticələr ölkənin iri informasiya mərkəzlərinin sahə üzrə fəaliyyətlərinin yaxşılaşmasına kömək məqsədilə müvafiq icra hakimiyyəti orqanlarına tövsiyə şəklində təqdim olunur.

Elmi-tədqiqat işləri nəticəsində əldə edilən müddəalar belə bir qərara gəlməyə imkan verir ki, Kitabxanaşünaslıq kafedrasının gələcək tədqiqat istiqamətlərinin "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda əhaliyə kitabxana-informasiya xidmətinin təşkilinin təkmilləşdirilməsi yolları





(Problemlər, vəzifələr)" mövzusu üzrə uzunmüddətli perspektiv araşdırma kimi müəyyənləşdirilməsi məqsədəuyğundur.

2. Əsas nəticələrə və təkliflərə əlavə olaraq qeyd etməyi lazım bilirik ki, BDU-nun "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiya heyəti keçən ildən başlayaraq kafedra müdiri, prof. A.A.Xələfovun təşəbbüsü ilə Kitabxanaşünaslıq kafedrasının yerinə yetirdiyi elmi-tədqiqat işinin nəticələrinin çap olunmasını məqsədəuyğun hesab etmişdir. Beləliklə, jurnalın 2013-cü il 2-ci nömrəsinin kafedranın 8 əməkdaşının apardığı elmi-tədqiqat işinin nəticələrinə həsr edilməsi nəzərdə tutulmuşdur.

**Кафедра Библиотекаведение Бакинской Госудерсвенного Университета на 2013-год по научно-иследовательским работам**

**Отчет**

*Отчет охватывает выпольнение научно-иследовательские работы сотрудников кафедры «Библиотекаведение» БГУ на 2013 год. Под руководством Заслуженного Деятелья Науки Азербайджана профессором А.А.Халафовум сотрудники кафедры проделали огромную научно-иследователскую, методические работу за текуший год и расширили международные связи кафедры. Отчет кафедры было принято единоглосно в угоном совете факультета.*

**Department bibliotekavedenie Baku State University 2013-year scientific works isledovatelskim**

**Report**

*The report covers the scientific vypolnenie isledovatelskie employee of the Department "Bibliotekavedenie" BSU in 2013. Under the leadership of Azerbaijan Honored Scientist Professor A.A.Halafovum members of the department did a great scientific isledovatelskuyu, methodical work for Tekushev year and expanded international relations department. The report was made edinoglosno department in the faculty council hijacking.*

138 69,
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası